Yenilənən, gözəllənən YASAMAL

Qanadlarını geniş açıb üfüqlərə doğru uçmaq istəyən qartala bənzəyir O! Başı buludlara dəyən əzəmətli binaları, geniş küçələri, yaşıl parkları, xiyabanları, işıq selində üzən çılçıraqlı gecələri, qurub-yaratmaq eşqilə çırpınan insanları ilə şəhərimizin üzüyünün qaşıdır Yasamal.

Amfiteatra bənzəyən Bakımızın ən uca nöqtəsi olan bu rayonun günbəgün dəyişməsi, gözəlləşməsi hər bir sakinin alnının təri, əllərinin qabarı, ürəyinin hərarəti hesabına başa gəlib. Bütün bu quruculuq işlərinin başında isə gecə-gündüz yorulmadan çalışan, böyük arzularla yaşayan, dövlətinə, dövlətçiliyinə, Prezidentinə sədaqətli olan, Azərbaycanı böyük məhəbbətlə sevən bir insan dayanır: Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Əsgər oğlu Mehdiyev!

Daim yenilik hissi, duyğusuyla çalışan, hər gün insanların yanında olan, onların dərd-sərinə şərik olan, sadə, səmimi, mehriban, demokratik düşüncəli İnsan!

İbrahim Mehdiyevin yola saldığımız 2014-cü və yaşadığımız Avropa Oyunları ili olan 2015-ci illə bağlı duyğu və düşüncələri həm də yeniləşən, gözəlləşən, inamla sabaha addımlayan doğma rayonumuz Yasamalın canlı portretidir.

—Bizim doğma Yasamal rayonu da daxil olmaqla Azərbaycanda gedən möhtəşəm quruculuq işlərinin baş memarı, heç şübhəsiz, müasir Azərbaycanın qurucusu ulu öndərimiz Heydər Əliyevin arzularını həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyevdir. Təkcə elə ötən il xanımı,—Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun, İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva ilə bir neçə dəfə rayonumuzda olması, əlamətdar tədbirlərdə iştirak etməsi ölkə başçısının rayonumuza nə qədər diqqət və önəm verdiyini göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" ölkəmizin bütün bölgələrinin hərtərəfli inkişafı sahəsində məqsədyönlü siyasətin davamı olmaqla, yeni müəssisələrin və iş yerlərinin yaranmasında müstəsna rol oynayır.

Bu sosial-iqtisadi sahələrdə əldə olunan davamlı inkişaf dinamikası respublikanın bütün bölgələrində olduğu kimi, Yasamal rayonunda da əhəmiyyətli dərəcədə müşahidə olunur.

2014-cü ildə rayonumuzda sənaye məhsulunun ümumi həcmi 77 milyon manat, nəqliyyat sektorunda xidmətlərin həcmi 1 milyard 478 milyon manat olmuşdur. Rabitə xidmətlərinin həcmi 488 milyon manat, ümumi investisiyadan tikinti-quraşdırma işləri 636 milyon manat olmuşdur ki, bu da ötən il ilə müqayisədə 149 və 130 faiz təşkil edir.

Pərakəndə ticarət dövriyyəsi 1 milyard 644 milyon manat, əhaliyə göstərilən pullu xidmətlər 467 milyon manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 169 və 113 faiz artım deməkdir.

Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 10,3 faiz artaraq 600 manata çatmışdır.

2014-cü ildə rayonda 4755 yeni iş yeri açılmışdır ki, onlardan 1130-u yaradılmış müəssisə və təşkilatlarda, 284-ü mövcud və bərpa olunmuş müəssisələrdə, 3341-i isə fiziki şəxslərdən ibarət olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən Yasamal rayonu üzrə 17 tədbirin icrası nəzərdə tutulmuşdur ki, artıq onlardan 8-nin icrasına başlanılmışdır.

Son bir ildə rayon ərazisində irihəcmli abadlıq-quruculuq və yaşıllaşdırma işləri həyata keçirilib. Bu dövrdə 6 yaşayış binasının fasadında yenidənqurma və bərpa işləri başa çatdırılıb, 18 yaşayış binasında isə bu işlər davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "110 qərb" su anbarının ərazisində salınacaq parkın layihəsi ilə tanış olarkən verdiyi göstərişlər artıq icra olunmuş, Dənizkənarı Milli Parkdan sonra Bakı şəhərində ərazisinə görə ikinci olan parkın salınması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Parkın sahəsi 6,5 hektardır. Bu parkda 5000 kvadratmetrdən çox tamet üzləmə işləri görülmüş, minlərlə ağac və bəzək kolları əkilmiş, 200-dən çox oturacaq qoyulmuş, uşaq əyləncə elementləri yerləşdirilmişdir. Parkın ətrafında yerləşən binaların fasad hissəsində bərpa və rekonstruksiya işləri görülmüş, Z.Xəlilov küçəsindəki 66, A.Abbasov küçəsindəki 18 saylı 9 mərtəbəli binaların fasad hissəsi isti aqlayla üzlənmiş, mənzillərə yeni plastik pəncərələr qoyulmuşdur. Ümumilikdə hər iki binada 6200 kvadratmetr isti aqlayla üzlənmə işləri aparılmışdır, müasir işıqlandırma sistemləri quraşdırılmışdır. Vaxtilə paytaxtımızın ümumi ahəngi ilə uzlaşmayan binalar artıq müasir, zövqoxşayan görünüşə malikdirlər. Dekabr ayının sonlarında sakinlərin asudə vaxtlarını mənalı keçirmələri üçün hər cür şərait yaradılmış, parkın açılış mərasimində möhtərəm Prezidentimiz cənab İlham Əliyev iştirak etmişdir.

Ölkə başçısının tapşırıqlarına uyğun olaraq rayon icra hakimiyyəti tərəfindən nümunəvi məhəllələrin yaradılması bu il də davam etdirilib. Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə H.Zərdabi küçəsi, 87 və Mətbuat prospekti, 24, 24 A saylı yaşayış binalarının ərazisində 1 hektara yaxın ərazidə 2 nümunəvi məhəllə yaradılaraq sakinlərin istifadəsinə verilib. Nümunəvi məhəllələr sakinlərin hərtərəfli istirahəti üçün zəruri olan hər bir şəraitlə təmin olunmuşdur.

Yasamal rayonunun ziyalılarının, təsərrüfat rəhbərlərinin və mədəniyyət mərkəzlərinin kollektivlərinin iştirakı ilə sakinlərlə görüş və nümunəvi məhəllələrin açılış mərasimləri keçirilmişdir. Sakinlər onların rifahının yaxşılaşmasına, sosial problemlərinin yüksək səviyyədə həllinə görə respublikamızın Prezidenti cənab İlham Əliyevə və rayon rəhbərliyinə təşəkkürlərini bildirmişlər.

Rayonun bir çox digər ərazilərində intensiv surətdə abadlıq-quruculuq işləri aparılmışdır. Nəriman Nərimanovun abidəsi yaxınlığındakı istinad divarına 130 kvadratmetr aqlay daşı vurulmuşdur. Mətbuat, Tbilisi prospektlərində və Zərdabi küçəsində yaşıllaşdırma və abadlıq işləri aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yaşıllıqların qorunması və artırılmasına dair tapşırıqlarının yerinə yetirilməsi istiqamətində rayonda xeyli iş görülmüşdür.

Mətbuat prospekti və B.Vahabzadə küçələrinin kəsişməsində yaşıllıq zolağı salınmış, 500 ədəd müxtəlif növ ağac əkilmişdir. M.Müşfiq küçəsinin Kənar Dairəvi yol istiqamətində 400 ədəd, Ş.Mehdiyev və A.Abbasov küçələrinin kəsişməsində isə 100 ədəd şam ağacı əkilmişdir. Bundan başqa, Mətbuat prospektindəki Yasamal qəbiristanlığının şəhərin ümumi görünüşünə xələl gətirən 400 poqonmetr uzunluğunda istinad divarı sökülərək daha hündür hasar tikilmişdir. Hasarın gücləndirilməsi və 1800 kvadratmetr aqlay daşı ilə üzlənmə işləri başa çatdırılmışdır.

Hazırda "Bakı-2015" Avropa Oyunlarına hazırlıqla əlaqədar şəhərin görkəminin yaxşılaşdırılması məqsədilə yaşayış məntəqələrini mərkəzi yoldan ayıran, hündürlüyü 4 m ayırıcı divarın quraşdırılması işlərinə başlanılmışdır. Bu işlər Ə.Salamzadə və M.Müşfiq küçələri, H.Zərdabi prospekti və Xarici Dairəvi yol boyunca yerinə yetirilir. Dekorativ hasarların çəkilməsi ilə bərabər, mövcud hasarlar və binaların fasad hissələri yenilənir. Əsas hərəkət marşrutuna daxil olduğu üçün H.Zərdabi küçəsi, Mətbuat və Tbilisi prospektlərində yaşıllaşdırma və abadlıq işləri başa çatıb. Bu küçə və prospektlərdə sürətlə icra olunan işlər 3000 poqonmetr ərazini əhatə edir. Bakı Dövlət Universitetinin sökülmüş yataqxanalarının qarşısındakı ayırıcı divar və universitetin hasarı Bakı Dövlət Universiteti tərəfindən inşa edilir.

"Bakı-2015" Avropa Oyunları ilə əlaqədar nəzarətdə saxlanılması zəruri olan məsələlərdən biri də mövcud reklam lövhələrinin "Dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə cavab verməsinin təmin edilməsidir. Hesab edirəm ki, aidiyyəti qurumlarla birgə rayon icra hakimiyyəti, xüsusən də rayon icra hakimiyyəti başçısının sahə inzibati dairələri üzrə nümayəndələri bu məsələni diqqət mərkəzində saxlamalıdırlar.

Yasamal Rayon İcra Hakimiyyətinin son dərəcə əhəmiyyətli və uğurlu bir işini də qeyd etmək istəyirəm. Bildiyiniz kimi, körpələr evi-uşaq bağçalarında körpə və uşaqların sıxlığı məlum problemlərin meydana çıxmasına səbəb olur. Körpə və uşaqların körpələr evi-uşaq bağçaları ilə təminatının Bakı şəhəri üzrə göstəricisi təxminən 20 faiz təşkil etdiyi halda rayonumuzda bu göstərici daha aşağı—cəmi 12-13 faiz təşkil edir.

Heydər Əliyev Fondunun Prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və tövsiyəsi ilə A.M.Şərifzadə küçəsi, 146 A, 148, 150, 154 və 156 saylı yaşayış binalarının həyətində qısa müddətdə yeni bir körpələr evi-uşaq bağçasının tikintisi başa çatdırıldı. Onun ətrafındakı ərazi bütünlüklə abadlaşdırılmış, yol və meydançalara yeni asfalt örtük salınmış, günlüklər, oturacaqlar, uşaq əyləncə elementləri, suvarma və işıqlandırma sistemləri quraşdırılmış, yeni ağaclar və güllər əkilmiş, çəmən döşənmişdir. Zirzəmi ilə birlikdə 2259 kv.m sahəsi olan 5 qrup və 100 yerlik 2 mərtəbəli uşaq bağçası bütün kommunal xidmətlərlə, o cümlədən "Kombi" istilik sistemi və su anbarı ilə təmin edilmişdir. Uşaq bağçasında monitorla müşahidə edilən kameralar quraşdırılmışdır. Burda ən müasir avadanlıqlarla təchiz edilmiş mətbəx, musiqi, idman zalı, rəsm otağı və yeməkxana da fəaliyyət göstərəcəkdir.

Uşaq bağçasının 2014-cü il oktaybrın 3-də keçirilən açılış mərasimində Heydər Əliyev Fondunun Prezidenti hörmətli Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti hörmətli Leyla xanım Əliyeva iştirak etmişlər. Hörmətli Mehriban xanım Əliyevanın "Körpələr evi-uşaq bağçası keyfiyyətlə və yüksək zövqlə inşa edilmişdir" sözləri burda zəhmət olan hər bir kəsin əməyinə verilən ən böyük qiymətdir.

Hazırda Mehriban xanım Əliyevanın göstərişinə əsasən körpələr evi-uşaq bağçasının təhvil-təslim edilərək təşkilati məsələləri həll olunmaq üzrədir.

"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində Yeni Yasamal yaşayış massivində idman kompleksinin inşası davam etdirilir. 153 saylı tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işləri başa çatdırılaraq istifadəyə verilmişdir. Məktəbin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

Dövlət Proqramı çərçivəsində Yeni Yasamal yaşayış massivi, 7-ci Alatava küçəsi, 70 saylı yeni tikilinin 1-ci mərtəbəsində yeni uşaq bağçası yaradılmaqdadır. Yaxın gələcəkdə rayonun ərazisində bir neçə uşaq bağçasının tikintisi üçün yerlərin müəyyən olunması istiqamətində işlər aparılır.

Bakı şəhərinin Baş planının icrasının təmin edilməsi ilə əlaqədar Yasamal rayonu ərazisində Azərbaycan prospekti, Nəriman Nərimanov prospekti, Əlibəy Hüseynzadə və Tolstoy küçələri, habelə, Zərgərpalan küçələrinin əhatəsində yerləşən ərazidə bir sıra yaşayış və qeyri-yaşayış sahələrinin köçürülməsinə artıq başlanılıb. Bakı Şəhər İcra Hakimiyyəti başçısının 12 dekabr 2013-cü il tarixli sərəncamına əsasən söküntü ərazisinə düşən 10500-dək yaşayış və qeyri-yaşayış sahəsində 6 mərhələ üzrə ölçü və inventarlaşdırma işləri aparılmalı idi. Bununla əlaqədar Yasamal Rayon İcra Hakimiyyəti başçısının 20 dekabr 2013-cü il tarixli 518 saylı sərəncamı ilə komissiya yaradılmış və müvafiq tapşırıqlar verilmişdir. İndiyədək 6676 təsərrüfatda tam ölçü və inventarlaşdırma işlərinin aparılması təmin edilib. İşin müəyyən mərhələsində ciddi çətinliklər və gərginlik yaranmasına baxmayaraq, əlaqədar təşkilatlar tərəfindən vaxtında düzgün addımlar atılmış, əhali arasında geniş izahat işləri aparılmış, müvafiq tədbirlər nəticəsində mövcud gərginliyin aradan qaldırılmasına nail olunmuşdur.

Söküntü ərazisinə düşən dövlət mühafizəsinə qəbul edilmiş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı, həmin abidələrin fotoşəkillərdən ibarət albomu, abidələrin yerləşmə xəritəsi tərtib edilmiş və bu məlumatlar baş nazirin müavini Abid Şərifova və Mədəniyyət və Turizm Nazirliyinə təqdim olunmuşdur. Söküntü ərazisində tarix və mədəniyyət abidələrinin sayı 160-dan çoxdur. Görülən işlərin digər mühüm nəticəsi yol infrastrukturu ilə bağlıdır. Sərəncamda yol infrastrukturu ilə bağlı göstərilən birinci bənddə nəzərdə tutulan işlər yerinə yetirilib. Belə ki, Nəriman Nərimanovun abidəsinin arxasından Qurban Xəlilov küçəsi boyu Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektinə daxil olmadan Hüseyn Cavid parkına qədər 600 metr yolun çəkilməsi üçün həmin ərazidə yaşayış və qeyri-yaşayış sahələri ilə bağlı köçürülmənin təmin edilməsi nəzərdə tutulmuşdur. Artıq bu tapşırıq yerinə yetirilib, yolun çəkilməsi üçün həmin ərazi tamamilə boşaldılıb, yaşayış və qeyri-yaşayış sahələri o ərazidə tam köçürülüb, yolun çəkilməsi üçün şərait yaradılıb. Paytaxtda tıxac probleminin aradan qaldırılmasında bu tədbirin böyük əhəmiyyəti vardır. Hüseyn Cavid parkının ətrafında bir çox mərkəzi icra hakimiyyəti orqanları—Vergilər, Ekologiya və Təbii Sərvətlər, Ədliyyə nazirlikləri, Dövlət Gömrük Komitəsi, bir sıra ali təhsil müəssisələri yerləşir. Çəkilən yol vasitəsilə həmin ərazi-yə birbaşa çıxış təmin ediləcəkdir. Bununla da Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektində tıxac problemi, demək olar ki, öz həllini tapacaqdır. Artıq yolun layihə-smeta sənədləri hazırlanır, icraçı təşkilat müəyyənləşdirilmişdir. Yolun nişanlanması tədbirləri həyata keçirilir.

Ötən il rayonda daha bir köçürmə prosesi başa çatdırılıb ki, bu da İncəsənət Gimnaziyasının binasının və yataqxananın sökülməsi ilə əlaqədar idi. Burada məskunlaşmış məcburi köçkünlərin və digər şəxslərin köçürülməsi təmin edilmiş. Bina qəzalı vəziyyətdə olduğuna görə belə bir zərurət yaranmışdı. Həmçinin yaxın zamanlarda istifadəyə verilmiş Milli Konservatoriyanın yeni monumental binası arxa planda qalaraq şəhərimizin ən yaraşıqlı prospektlərindən birinin ümumi mənzərəsinə qovuşa bilmirdi. Qəzalı binanın sökülməsi ilə H.Cavid prospektinə xüsusi bir görkəm verildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən 2014-cü il fevralın 17-dən başalayaraq may ayının 1-dək rayon əhalisinin ümumi profilaktik tibbi müayinə tədbirləri keçirildi. Tədbirin rayonda yüksək səviyyədə və mütəşəkkilliklə keçirilməsini təmin etmək məqsədilə zəruri olan bütün təşkilati məsələlər həll edildi.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının tapşırığına əsasən Yasamal rayonundakı Heydər Əliyev mərkəzlərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi irsinin daha dərindən öyrənilməsinə xidmət edən dərslərin keçirilməsi təmin olunmuşdur. Bu dərslərin tədrisində fərqlənən müəllimlərimiz rayon icra hakimiyyəti başçısının fəxri fərmanları və qiymətli hədiyyələri ilə mükafatlandırılmışlar.

Əvvəlki illərdə olduğu kimi, ötən il də rayonun təhsil işçiləri üçün uğurlu olmuşdur. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən 21 saylı tam orta məktəbin direktor müavini Gülnarə Süleymanova, 18 saylı tam orta məktəbin müəllimi Rəna Ağazadə, Avropa liseyinin müəllimi Aynur Rüstəmova "Tərəqqi" medalı ilə təltif olunmuş, 13 saylı məktəbin direktoru Yaqut Sadıqova, 153 saylı məktəbin direktor müavini Sevinc Babayeva, 20 saylı məktəbin müəllimi Fatma Mustafayeva, Avropa liseyinin müəllimi Sevda Rəşidova, Akademik Zərifə Əliyeva adına liseyin direktor müavini Aygün Əzizova və Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi Şükufə Xankişiyeva "Əməkdar müəllim" fəxri adına layiq görülmüşlər. Azərbaycan Respublikası Prezidentinin "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" sərəncamına əsasən müəllimlərin aylıq vəzifə maaşları orta hesabla iki dəfə artırılmışdır. Adıçəkilən sərəncam Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəllimlərə olan diqqət və qayğısının təzahürlərindən biridir və onların rifahının yaxşılaşmasına yönəlmiş mühüm dövlət tədbiri kimi qiymətləndirilməlidir.

2014-cü il rayonda keçirilən tədbirlərin rəngarəngliyi ilə də zəngindir. Bu tədbirlərin ən möhtəşəmi və yaddaqalanı ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş silsilə tədbirlər və "Gül bayramı" oldu. Müxtəlif nominasiyalar üzrə təqdim edilən kompozisiyaların dolğun və yüksək səviyyədə tərtibat işlərinə görə rayonun orta ümumtəhsil məktəbləri, məktəbəqədər müəssisə və şagirdlər müxtəlif mükafatlarla təltif olundular.

Ötən il 20 Yanvar faciəsinə, 2 fevral — Ümumrespublika Gənclər Gününə, 9 may — Qələbə Gününə, 1 iyun — Uşaqların Beynəlxalq Müdafiəsi Gününə və 15 iyun — Milli Qurtuluş Gününə həsr olunmuş müxtəlif tədbirlər də keçirilmişdir.

Azərbaycan təhsilinin flaqmanı olan Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Kollecinin yaranmasının 95 illiyi qeyd edilmişdir.

Yarandığı gündən rayon ictimaiyyətinin, xüsusilə gənclərin mütəmadi üz tutduqları, artıq məbədgaha çevrilmiş Yasamal rayon Heydər Əliyev Mərkəzinin fəaliyyəti ayrıca qeyd olunmalıdır. Burada əvvəlki illərdə olduğu kimi, ötən il də müxtəlif tarixi və əlamətdar günlərlə bağlı çoxsaylı tədbirlər keçirilib. Bu ildən başlayaraq nikaha daxil olan gənclərin, onların valideynlərinin arzu və istəkləri nəzərə alınaraq burada Ədliyyə Nazirliyinin Yasamal Rayon Qeydiyyat Şöbəsi tərəfindən nikah mərasimləri təşkil olunmağa başlanmışdır. Hesab edirəm ki, bu mərasimlər müasir gəncliyin ulu öndər Heydər Əliyev siyasi irsinə, ümummilli liderimizin tarixi xidmətlərinə verdiyi sonsuz dəyərin təzahürlərindən biridir.

Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq aztəminatlı, imtiyazlı şəxslər rayon icra hakimiyyətinin diqqətindən kənarda qalmayıb. Müxtəlif bayram günləri, Novruz, Ramazan, Qurban bayramları, Ahıllar, Əlillər günləri və s. ilə əlaqədar onlara ərzaq və maddi yardımlar verilmişdir.

Rayonda uğurla başa çatdırılan tədbirlərdən biri də bələdiyyə seçkiləri olmuşdur. Seçkilər qanunvericiliyə uyğun olaraq şəffaflıq şəraitində keçirilmiş, daimi seçici siyahısına daxil edilmiş 136232 nəfər seçicidən bələdiyyə seçkilərində 47615 nəfər, yəni seçicilərin 34,97 faizi iştirak etmişdir. Bələdiyyə seçkilərini ümumrespublika göstəriciləri ilə müqayisə etdikdə bu nəticəni qənaətbəxş hesab etmək olar.

2015-ci il ölkəmizdə ilk Avropa Oyunları və Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlamətdar olacaqdır. Yasamal Rayon İcra Hakimiyyəti başda olmaqla rayon ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələri şərəflə və ləyaqətlə yerinə yetirəcəkdir.

Zülfüqar ŞAHSEVƏNLİ,
"Respublika".